*Qarabağ və Şərqi Zəngəzur həm təbiət, həm də insan əllərinin qüdrəti ilə yaradılan abidələrlə zəngindir. Bu yerlərdə hər daş bir tarix pıçıldayır. Ermənistan havadarlarının köməyi ilə işğal etdiyi torpaqlarımızda Azərbaycanın tarixi-mədəni irsinə qarşı görünməmiş vandalizm həyata keçirib. Xalqımıza məxsus yüzlərlə tarixi, mədəni və dini abidələr dağıdılıb, təhqir edilib, saxtalaşmaya və mənimsənilməyə məruz qalıb. Bəşər sivilizasiyasının ilk meydana gəldiyi Azərbaycanda hər daşın altında bir tarix yatır, hər qalası, hər kurqanı möhürdür, kimliyimizi, ilkinliyimizi təsdiq edir. Əcdadlarımız bu torpaqlarda çox qiymətli və nadir maddi-mədəniyyət nümunələri yaradıblar, şəhərsalmanın ilk təməlini atıblar, dünya memarlığına töhfələr veriblər. Arxeoloji qazıntıların nəticələri göstərir ki, Azərbaycanın tarixi qədim yaşayış məskənlərində və çoxsaylı abidələrdə öz əksini tapıb.*



# Əsgəran qalası intibah dövrünə işıq salır

Torpaqlarımızın 20 faizini işğal etmiş və onu 30 il əsarətdə saxlayan Ermənistanın hərbi birləşmələri milli mədəniyyət abidələrimizi qəddarcasına dağıdıblar. Erməni terrorçuları tərəfindən zəbt olunmuş qədim Qarabağ və ona bitişik rayonlarda 13 dünya əhəmiyyətli - 6 memarlıq və 7 arxeoloji, 292 ölkə, 330 yerli əhəmiyyətli memarlıq, arxeoloji, bağ, park, monumental və xatirə abidələri, sənət nümunələri məhv edilib. Həmçinin bu ərazilərdə 40 mindən artıq əşyanın toplandığı 22 muzey, yüzlərlə mədəni-maarif müəssisələri də düşmən tərəfindən talan edilib. Çox təəssüf ki, haqdan, ədalətdən danışan Qərb dövlətlərinin böyük əksəriyyəti ermənilər tərəfindən törədilmiş bu barbarlığa göz yumurlar, hətta qarətçi, oğru, talançı hayları müdafiə edirlər. Bu tərəfkeşlik və havadarlığa baxmayaraq, Qalib Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun bölmələri bu ədalətsizliyə, erməni işğalına son qoyaraq qəsbkar Ermənistanı diz üstə çökdürdü, işğalçını məğlub edərək həqiqəti bərpa etdi. Ağdam-Şuşa yolunun üstündə yerləşən qədim Əsgəranda möhtəşəm bir qala var, onun divarları önündə dayananda müharibələr şahidi olan qəsrin daşlarında qılınc, top, tüfəng səslərini hiss edirsən, qalanın əzəməti heyranlıq yaradır.

Əsgəran qalasının taleyi də keşməkeşli olub, yadelli işğalçıların hücumlarına məruz qalıb, bəzi yerlərdə qala divarları uçurulub. Tarixi mənbələrə görə, Əsgəran qalası qarabağlı Pənahəli xanın göstərişi ilə 1787-ci ildə çay daşlarından tikilib. Qala öz quruluşuna görə daha çox müdafiə səddinə bənzəyir. Əsgəran qalası Şuşanın 24, Xocalının 5 kilometrliyində və Ağdam şəhərinin 12 km cənubunda, Qarqar çayın sağ və sol sahillərindəki dağ döşündə yerləşir. Araşdırmaçılar Əsgəran qalasının tikintisini Qarabağ xanlığının yüksəliş dövrünə təsadüf edirlər. Eyni zamanda bu qalanı Azərbaycanın çoxəsrlik müdafiə sədləri ənənəsinin son örnəyi hesab edirlər. Qeyd edək ki, Əsgəran qalasının gözəl və qeyri-adi landşaftı olan bir yerdə salınması və onun memarlıq üslubu son dərəcə təsirli görünüşə malikdir. Şuşaya vaxtilə xanlığın mərkəzinə açılan qapı bu səddən başlayır. Qarqar çayından başlayaraq, dağa doğru uzanan qala divarları öz möhtəşəmliyi ilə göz oxşayır. Yuxarıda qeyd etdiyimiz kimi, Ermənistan işğal illərində Əsgəran qalasında qanunsuz olaraq "bərpa-tikinti" işləri aparıb, qalanın tarixi simasını dəyişdirməyə cəhd edib. Görünən odur ki, tarixi tikilinin memarlıq üslubu dəyişdirilib, guya bərpa aparılan ərazilərdə dərin çalalar əmələ gəlib, qalanın görkəminə ciddi zərər vurulub.

Qalanın sağ sahil (şərqi) istehkamı bürclərlə möhkəmləndirilmiş ikiqat daş divarlarından ibarətdir. Bütün bürclər ikimərtəbəli olub, bir-birilərilə ikimərtəbəli qala dəhlizləri ilə birləşdirilmişdir. Relyefə uyğun olaraq dəhliz bir bürcün birinci mərtəbəsini digər bürcün ikinci mərtəbəsi ilə birləşdirir. Dağ keçidindən müdafiə olunan kənar şərq bürc xüsusi formalı otaqların yaratdığı kompleksdən ibarətdir. Sol sahil hissəsi (qərb) relyef nəzərə alınmaqla inşa olunmuş qala divarları altı bürclə möhkəmləndirilmişdir. Qala divarlarının hündürlüyü 9 metr, qalınlığı 2 metrdir və çay daşlarından tikilmişdir.

Azərbaycan Milli Ensiklopediyasında məlumat verilir ki, Rusiya-İran müharibəsi zamanı (1804-1813) Rusiya qoşunlarının düşərgəsi Əsgəran qalasının yaxınlığında yerləşib. Rusiya ilə İran arasındakı sülh danışıqları (1810) Əsgəran qalasında aparılmışdır. Tarixi mənbələrdə qeyd olunur ki, Əsgəran döyüşü (1920) - Azərbaycanın ordu hissələrinin mart-aprel aylarında erməni qoşunlarına qarşı apardığı hərbi əməliyyatın tərkib hissəsi olub. Hər iki tərəf üçün strateji əhəmiyyət daşıyan Əsgəran Qarabağda hərbi təşəbbüsün əldə saxlanması üçün başlıca amil idi. Martın 21-də erməni daşnakları Qarabağın bir sıra məntəqələri ilə bərabər, Əsgəranda AXC ordusunun post qüvvələrini məhv etmiş, Əsgəran keçidi bağlanmış, Xankəndi və Şuşada yerləşən hərbi qarnizon çətin vəziyyətə düşmüşdü. Martın 26-dan general H.Səlimov kəşfiyyat apardıqdan üç gün sonra Əsgəran döyüşlərinə başlamışdır. Döyüşdə 5-ci Bakı piyada alayının bölmələri, parlament mühafizə dəstəsi və partizanlar iştirak edirdi. Bir neçə yüksəkliyi və kəndi ələ keçirən hərbi qüvvələrə orada möhkəmlənmək əmri verilsə də onlar hücuma keçmişdilər. Lakin Əsgərandan kömək alan daşnaklar Azərbaycan qoşunlarını geri çəkilməyə məcbur etdilər. Döyüşün aparılmasında partizanlara deyil, nizami hərbi hissələrə üstünlük verilməsi məqsədilə Zaqatala piyada alayının, 7-ci Şirvan alayının, 1-ci Azərbaycan süvari alayının, bir dağ topçu batareyasının Ağdama gətirilməsi qərara alındı. Aprelin 3-də hücuma keçən qoşun hissələri Əsgəranı və Xocalını, Ağdam-Əsgəran yolunun üstündəki məntəqələri (Kətik, Aranzəmin, Naxçıvanlı) daşnaklardan təmizlədilər. Əsgəran döyüşlərinin uğurla başa çatması ordu hissələrinin tezliklə Şuşaya daxil olmasına zəmin yaratdı.





İşğaldan azad edilmiş ərazilərdə dini-mədəni abidələr mərhələli şəkildə bərpa və restavrasiya edilir. Azərbaycan dövləti xalqımızın milli-mədəni irsinin qorunub saxlanmasına xüsusi diqqət və qayğı göstərir. Torpaqlarımız işğal altında olduğu dövrdə Ermənistan tərəfindən dağıdılan, məhv edilən irsimiz, o cümlədən tarixi, dini abidələrimizə bu gün ikinci həyat verilir. Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu da bu tarixi missiyaya mühüm töhfə verir. Şuşada Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin, Vaqifin büstünün, görkəmli bəstəkar Üzeyir Hacıbəylinin heykəlinin yenidən qurulması, eyni zamanda Mehmandarovların malikanə kompleksinin təmiri, Zəngilan məscidinin yenidən tikilməsi, Ağdam Cümə məscidinin restavrasiyası başa çatdırılıb. Görülən tədbirlər, eyni zamanda bölgənin turizm potensialının inkişafına müsbət təsir göstərir. Bu baxımdan, Əsgəran qala-kompleksinin bərpası, tarixən malik olduğu şöhrətinin özünə qaytarılması xalqımızın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin tanıdılmasına xidmət edir.

2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra Əsgəran qalası da separatçılardan azad edilib. Qala-kompleksinin dizayn layihəsi "Mədəni və təbii irs", "İnfrastruktur və xidmətlər", "Əyləncə və istirahət", "Marketinq və təşviqat" olmaqla, 4 istiqaməti əhatə edən konsept üzrə hazırlanıb. Layihəyə əsasən qalanın konservasiyası, möhkəmləndirilməsi, arxeoloji qazıntıların aparılması və açıq səma altında tarixi parkın yaradılması nəzərdə tutulur. Qala ərazisində müxtəlif rekreasiya xidmətlərinin də təklif olunduğu yaşayış kompleksinin inşası, daxili yol şəbəkəsinin (piyada və nəqliyyat) hazırlanması planlaşdırılır. Kompleks ərazisində ilin dörd fəslində festival və mədəni tədbirlərin keçirilməsi, idman, istirahət və əyləncə, ticarət, ictimai iaşə və digər sahələr üzrə müvafiq infrastrukturun yaradılması nəzərdə tutulur. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 18-də Əsgəran qala-kompleksinin konsepsiya layihəsi ilə tanış oldular. Bu gün işğaldan azad edilmiş ərazilərə həyat yenidən qayıdır. Keçmiş məcburi köçkünlər kimi abidələrin və qalaların da ikinci ömrü başlanır.

**Salman ALIOĞLU,**
**"Respublika".**